Ədəbiyyat qəzeti
28 fevral 2025-ci il 27
№8

# Məhəmməd Əli - 75



Hörmətli Məhəmməd müəllim!

Sizi - istedadlı və vətənpərvər şairi 75 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz 1 mart 1950-ci ildə Qəbələ rayonunun Qəmərvan kəndində anadan olmusunuz. Ədəbi fəaliyyətə ötən əsrin yetmişinci illərində başlamısınız, ilk qələm təcrübələriniz mətbuatda işıq üzü görmüşdür. Hələ 1969-cu ildə pioner və məktəblilər arasında keçirilən "Doğma vətən, sən nə gözəlsən" respublika müsabiqəsinin qaliblərindən biri olmusunuz. Şeir, yumoristik hekayələriniz, habelə digər yazılarınız müxtəlif mətbu orqanlarda dərc olunub. Şeirləriniz radio və televiziya efirindən səsləndirilib, almanaxlara daxil edilmişdir.

"Dağlardan ayrı", "Sevincim acıdır, kədərim şirin", "Özümü axtarıram", "Söz səninndir", "Çörəyimin duzu yoxdur", "Gedirəm üzü gündoğana", "Duyğularımı səpdim dənizə", "Sovurur yellər məni" və "Etiraf" adlı publisistik, hekayə və şeir kitablarının müəllifisiniz.

"Qızıl qələm" və müxtəlif media mükafatları laureatısınız.

2006-cı ildə "Söz sənindir" adlı şeirlər kitabınız İran İslam Respublikasının paytaxtı Tehran şəhərində nəşr olunmuşdur.

Yaxşı haldır ki, 2020-ci ildə yaradıcılığınıza yenidən nəzər salaraq bəzilərini təkmilləşdirmiş, böyük əksəriyyətini bir yerə toplayaraq 740 səhifəlik "Toplu" çap etdirmisiniz.

2025-ci ildə isə "Payız ovqatı" adlı yeni şeirlər kitabınızın nəşri yaradıcılığınıza məsuliyyətlə yanaşmağınızın göstəricisidir.

Hörmətli Məhəmməd müəllim!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**